www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-20 (1781) 30 noyabr 2023-cü il




## Görkəmli alim Tağı Tağızadənin 100 illik yubileyi qeyd olunub

**Rektor, professor Gəray Gəraybəyli: Bu böyük şəxsiyyətin Azərbaycan tibb elmi, xalqımız qarşısında danılmaz xidmətləri var**

səh. 2

### Atatürk Universitetinin professoru tələbələrimizə mühazirə oxuyub

səh. 6

### COVID-19-un yeni variantı qorxulu olmasa da, çox yoluxucudur

səh. 6

### Narkotik asılılığı: dəhşətli yola düşüncəsiz atılan addımlar

səh. 7



### XX əsr Azərbaycan dövlətçilik tarixində Əziz Əliyevin xidmətləri

Görkəmli ictimai-siyasi xadim, professor Əziz Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitabın təqdimat mərasimi keçirilib

səh. 3

### "Həkim xəstənin sirdaşı olmalıdır"

*Tanınmış türk aktyor-həkim Ercan Kesal universitetimizin tələbələri ilə görüşüb*

səh. 4

### Beyin toxumasının kiçilməsi ağır fəsadlara yol açır

*Dosent Rövşən Xəlilzadə: Beyin atrofiyası koqnitiv, hərəkət və ruhi funksiyalarda pozğunluğa səbəb olur*

səh. 5



### "Clarivate Analytics" şirkətinin nümayəndələri ilə görüş keçirilib

ATU-nun rektoru: Əməkdaşlığımız ali təhsilin məzmununda elmi fəaliyyətin dəstəklənməsinə böyük töhfədir

səh. 2

# Akademik Mirəsədulla Mirqasımovun məzarı ziyarət olunub



**Noyabrın 17-də AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, səhiyyə nazirinin müavini Nadir Zeynalov, ATU-nun rektoru, professor Gəray Gəraybəyli və ictimaiyyət nümayəndələri Azərbaycan Milli Elmlər Akademiyasının ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, ilk tibb elmləri doktoru, Əməkdar elm xadimi, akademik Mirəsədulla Mirqasımovun anadan olmasının 140 illiyi münasibətilə Fəxri Xiyabanda məzarını ziyarət ediblər.**

İctimaiyyətin nümayəndələri görkəmli alimin məzarı üzərinə tər gül dəstələri qoyub, ruhuna dualar oxuyublar.

Mirəsədulla Mirqasımovun elmi, ictimai fəaliyyətindən danışan akademik İsa Həbibbəyli görkəmli alimin Azərbaycan Elmlər Akademiyasının qurucu prezidenti kimi elm tariximizə düşdüyünü, ölkə elminin bütün sahələri üzrə fundamental elmi tədqiqatların istiqamətlərinin müəyyən edilməsinə xüsusi diqqət yetirdiyini söyləyib. Qeyd edib ki, təbiət və texniki elmlər üçün lazımi maddi-texniki bazanın yaradılması, laboratoriyaların təşkili də akademik Mirəsədulla Mirqasımovun adı ilə bağlıdır.

Sonra çıxış edən akademik M.Mirqasımovun oğlu, Xalq artisti Oqtay Mirqasımov atasının xatirəsinə göstərilən yüksək diqqət və ehtirama görə minnətdarlığını bildirib.

# “Clarivate Analytics” şirkətinin nümayəndələri ilə görüş keçirilib

## ATU-nun rektoru: Əməkdaşlığımız ali təhsilin məzmununda elmi fəaliyyətin dəstəklənməsinə böyük töhfədir



**Azərbaycan Tibb Universitetində “Clarivate Analytics” şirkətinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə bu şirkət tərəfindən idarə olunan “Web of Science” elmi platformasında aparılan işlər haqqında məlumat verilib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu platforma sayəsində universitetin professor-müəllim heyətinin, tədqiqatçıların və tələbələrin dünyanın yüksək reytinqli elmi jurnalları, konfrans materialları barədə məlumatlara çıxışının təmin olunduğunu qeyd edib. Bu əməkdaşlığın ali təhsilin məzmununda elmi fəaliyyətin dəstəklənməsinə böyük töhfə olduğunu bildirib. Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov isə şirkətlə əməkdaşlıq çərçivəsində görülən işlər və hədəflər barəsində danışıb.

“Clarivate Analytics” şirkətinin regional nümayəndəsi Anna Trifonova və Elmi araşdırmaların qiymətləndirilməsi üzrə strateji məsləhətçisi Valentin Bogorov “Web of Science” bazasının özündə təbiət, texniki, sosial elmlər haqqında məlumatları əks etdirən elmi nəşrləri birləşdirdiyini, burada indekslənən jurnalların beynəlxalq elm ictimaiyyətində yüksək status və təsir gücünə malik olduğunu bildiriblər.

Görüşdə ATU ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan “Clarivate Analytics” arasında əməkdaşlığın istiqamətləri müzakirə olunub.

Qeyd edək ki, Azərbaycanın 40 ali təhsil müəssisəsi “Web of Science” elmi platformasına çıxış əldə edib. Bu əməkdaşlıq çərçivəsində son illər ərzində Azərbaycan alimlərinin “Web of Science” bazasına daxil olan məqalələrinin ölkə üzrə ümumi sayı dəfələrlə artıb. Hətta 2018-ci ildə həmin platformaya daxil olan məqalələrin sayına görə Azərbaycan ilk dəfə olaraq Cənubi Qafqaz ölkələri arasında birinci yerə yüksəlib.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzər prorektoru, dosent Orxan İsayev, rektorun müşaviri, İnformasiya texnologiyaları departamentinin müdiri Rəmzi Əliyev, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edirdilər.

# Görkəmli alim Tağı Tağızadənin 100 illik yubileyi qeyd olunub

## Rektor, professor Gəray Gəraybəyli: Bu böyük şəxsiyyətin Azərbaycan tibb elmi, xalqımız qarşısında danılmaz xidmətləri var






**Azərbaycan Tibb Universitetində Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tağı Ələkbər oğlu Tağızadənin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor Gəray Gəraybəyli açıb. Bildirib ki, ölkəmizdə elm və mədəniyyət xadimlərinə Ulu Öndər Heydər Əliyev tərəfindən həmişə böyük diqqət və qayğı göstərilib: “Ulu Öndər böyük alimlərimizin – təhsil, səhiyyə və mədəniyyət xadimlərinin əməyinə hər zaman böyük qiymət verib. Bu gün də bu böyük ənənəni cənab Prezidentimiz İlham Əliyev davam etdirir. Mütəmadi olaraq alimlərimiz müxtəlif orden və medallarla təltif olunurlar. Həmçinin Ulu Öndərin zamanından bizə çox əhəmiyyətli bir ənənə miras qalıb. Bu ənənə ondan ibarətdir ki, vaxtilə ölkəmizin həyatında, elmimizdə, səhiyyəmizdə, təhsilimizdə, mədəniyyətimizdə dərin iz qoymuş ziyalılarımızın yubileyləri qeyd olunur. Hesab edirəm ki, bu ənənə xüsusilə gənc nəsillər üçün çox vacibdir. Çünki dünəni olmayanın sabahı da olmaz.

Bu gün biz Azərbaycan tibb elminin inkişafında böyük xidmətlər göstərmiş, uzun müddət Epidemiologiya kafedrasına rəhbərlik etmiş, Azərbaycan və keçmiş SSRİ-nin epidemiologiya elminə böyük töhfələr vermiş əməkdar elm xadimi, professor Tağı Tağızadənin 100 illik yubileyi mərasiminə toplaşmışıq.

Tağı müəllim ölkəmizdə uzun illər elmi-tədqiqat institutlarına da rəhbərlik edib. Azərbaycanda profilaktik təbabətin inkişafı və tərəqqi tapmasında böyük işlər görüb. Həmçinin Azərbaycanda milli kadrların hazırlanmasında da Tağı müəllimin xüsusi xidmətləri olub. Məhz onun zəhməti sayəsində rəhbərlik etdiyi kafedra nəinki ölkəmizdə, eyni zamanda ittifaq səviyyəsində sayılıb-seçilən kafedralardan hesab olunurdu. Məhz bu kafedrada dəfələrlə ittifaq miqyaslı konfranslar, qurultaylar, seminarlar keçirilib. Bir sözlə, bu böyük şəxsiyyətin Azərbaycan tibb elmi, xalqımız qarşısında danılmaz xidmətləri olub”.

Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev T.Tağıyevin həyat və fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, həm Tağı müəllimin tələbəsi olub, həm də uzun müddət onun rəhbərliyi altında işləyib: “Tağı müəllim 1923-cü il sentyabrın 4-də Bakı şəhərində, vaxtilə məşhur diş həkimlərindən olan Ələkbər kişinin ailəsində dünyaya göz açıb. 1929-cu ildə Bakı şəhərində 25 saylı orta məktəbə gedib. 1930-cu ildə Xaçmaz rayonunun Xudat kəndinə stomatoloq-həkim kimi işləməyə göndərilən atası ailəsi ilə birlikdə ora köçüb və T.Tağızadə 1933-cü ilə kimi Xudatda təhsil alıb. 1933-cü ilin axırlarında ailələri Bakıya qayıdıb və o, yenidən təhsilini 25 saylı məktəbdə davam etdirib. 1938-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub və 1942-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vurub”.

Professor İ.Ağayev yubilyarın əmək fəaliyyətinə 1941-ci ildə Xalq Səhiyyə Komissarlığının Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda həkim-epidemioloq kimi başladığını, 1942-ci ildə Kəlbəcər rayonunda əvvəl epidemioloq və parazitoloq, sonra isə rayon səhiyyə şöbəsinin müdiri, 1943-44-cü illərdə Yevlax rayonunda sanitar-epidemioloji stansiyanın və eyni zamanda tropik stansiyanın rəisi, 1944-45-ci illərdə Quba rayon dövlət sanitar müfəttişi vəzifələrində işlədiyini qeyd edib. O, 1945-ci ildə T.Tağızadənin yenidən Bakıya qayıtdığını və Tibb İnstitutunun Epidemiologiya kafedrasında çalışdığını diqqətə çatdırıb. Görkəmli alim 1966-cı ildən 1992-ci ilədək adıçəkilən kafedraya rəhbərlik edib: “1952-ci ildə o, professor İsmayıl Axundovun rəhbərliyi altında tibb elmləri namizədi dissertasiyasını müdafiə edib. Tağı müəllim 1952-56-cı illərdə Bakı 2 saylı tibb məktəbinin direktor müavini və universitetimizin Müalicə-profilaktika fakültəsinin dekan müavini, 1962-66-cı illərdə isə Azərbaycan Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunun direktoru işləyib”.

Natiq görkəmli alimin fəaliyyəti dövründə bütövlükdə tədris prosesinin geniş surətdə yenidən qurulmasından, elmi-tədqiqat işlərinin sürətli inkişafından, onun ilk dəfə olaraq Azərbaycan dilində epidemiologiyaya dair dərslik kitabı çap etdirməsindən, elmi kadrların keyfiyyətli hazırlığı sahəsində qazandığı uğurlardan da geniş söhbət açıb.

Tədbir zamanı T.Tağızadənin tələbələri onun haqqında maraqlı xatirələrini bölüşüblər. Əməkdar elm xadimi, “Şöhrət” ordenli akademik Vaqif Şadlinski müəllimi ilə bağlı ürək sözlərini söyləyib: “Ölkəmizdə elə ailələr var ki, yetişdirdikləri alimlərlə dövləti və milləti müdafiə edirlər. O ailələrin ən böyük xidməti elə budur. Onlardan Ulu Öndər Heydər Əliyevin, Əziz Əliyevin, Topçubaşovun və Tağı Tağızadənin ailələrini misal göstərə bilərik. T.Tağızadənin ailəsində 4 professor yetişib, ümumilikdə isə bu nəsildən çıxan14 professorun adını çəkmək olar.

Tağı müəllimin tələbəsi olmaqla yanaşı, həm də onunla birlikdə işləmişik. O, elmə qiymət verirdi və milli gənc kadrların yetişməsində əlindən gələni edirdi. Biz tələbələr Tağı müəllimdən çox şey öyrəndik. İstəyirdi ki, tələbələri mütaliəli, savadlı olsun, əsl elm adamı, vətəndaş kimi yetişsinlər. Yadımdadır, tələbələrə verdiyi kitabın bəzi vərəqlərini yapışdırar, onların həmin kitabı oxuyub-oxumadığını müəyyən edərdi”.

Yubilyar haqqında tələbələrindən Vəli Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev, adıçəkilən institutun şöbə müdiri, professor Akif Salehov, ATU-nun Əczaçılıq texnologiyası və təşkili kafedrasının müdiri, professor Məhbubə Vəliyeva da ürək sözlərini deyib, xatirələrini bölüşüblər.

Ailəsi adından yubilyarın oğlu, fizika-riyaziyyat elmləri doktoru, professor, BMT-nin eksperti Azad Tağızadə çıxış edib. O, atasının xatirəsini ehtiramla yad etdiyi üçün Tibb Universitetinin rəhbərliyi və kollektivinə, eləcə də tədbirin təşkilatçı və iştirakçılarına təşəkkürünü bildirib.

Daha sonra görkəmli alimin həyat və fəaliyyətini əks etdirən foto-albom nümayiş olunub.

Tədbir öz işini elmi məruzələrin dinlənilməsi ilə davam etdirib.

**Qabil ABDULLAYEV**

**Noyabrın 28-də Ümummilli Lider Heydər Əliyevin 100 illiyi çərçivəsində ATU-nun İctimai fənlər kafedrasının dosenti Leyla Talışinskinin müəllifi olduğu “XX əsr Azərbaycan dövlətçilik tarixində görkəmli ictimai-siyasi xadim Əzizi Əliyevin xidmətləri” adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilib.**

# XX əsr Azərbaycan dövlətçilik tarixində Əziz Əliyevin xidmətləri

## Görkəmli ictimai-siyasi xadim, professor Əziz Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitabın təqdimat mərasimi keçirilib



Tədbirdə çıxış edən ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov Azərbaycan səhiyyəsinin inkişafında müstəsna xidmətləri olan görkəmli alim və dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı, əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Əliyevin həyat və fəaliyyəti barədə söhbət açıb. Bildirib ki, Respublika Xalq Komissarlığının müalicə şöbəsinin rəhbəri, Bakı şəhərinin səhiyyə şöbəsinin rəisi, Azərbaycan Tibb İnstitutunun rektoru vəzifələrində işləyərkən Əziz Əliyev öz təcrübəsini, istedadını, sönməz enerjisini respublikanın səhiyyəsinə, yüksək ixtisaslı həkimlərin yetişdirilməsinə, elmin inkişafına yönəldib.

Bundan sonra Əziz Əliyevin şərəfli ömür yolundan və fəaliyyətindən bəhs edən video çarx nümayiş olunub.

ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev və İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru, Rusiya Tibb Elmləri Akademiyasının akademiki Vaqif Şadlinski öz çıxışlarında böyük alim, ictimai-siyasi xadim Əziz Əliyevi xalqımızın tarixində və tibb elmində böyük rolu olan nadir şəxsiyyət kimi qiymətləndiriblər. Bildirilib ki, elə insanlar var, təmsil etdikləri millətin, dövlətin həyatında silinməz iz qoyurlar. Əziz Əliyev də məhz belə insanlardan olub. Qeyd edilib ki, tarixin heç də asan olmayan dövründə çalışan bu ləyaqətli insan gördüyü hər bir işi şərəflə, peşəkarlıqla, vətənpərvərliklə yerinə yetirib.

Natiqlər Tibb İnstitutunun fəaliyyətində danılmaz rolu olan bu görkəmli alimin instituta rəhbərlik etdiyi illərdə Azərbaycan səhiyyəsi üçün peşəkar kadrlar yetişdirildiyi və bu ali təhsil müəssisəsinin işinin daha da təkmilləşdirildiyini vurğulayıblar. Həmin illərdə institutun tələbələri üçün Azərbaycan dilində çoxlu sayda kitablar yazılıb və səhiyyənin maddi-texniki bazasının gücləndirilməsinə böyük önəm verilib. Yeri gəlmişkən, ATU-nun kitabxanası və “Təbib” qəzeti professor Əziz Əliyevin şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə yaradılıb. Onun 1959-cu ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru olduğunu xatırladan natiqlər əlavə ediblər ki, dünyasını dəyişdiyi vaxtdan uzun illər ötməsinə baxmayaraq, Əziz Əliyevin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev “Görkəmli ictimai-siyasi xadim Əziz Əliyev dövlətçilik fəaliyyətində həkim xeyirxahlığı ilə ucalmışdır”, AMEA-nın Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov isə “XX əsr Azərbaycan dövlətçilik tarixində Əziz Əliyevin yeri və xidmətləri” mövzularında çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, təqdimatı keçirilən dərs vəsaitində Ə.Əliyevin XX əsrin 20-30-cu illərindəki elmi fəaliyyəti hərtərəfli işıqlandırılıb və onun səhiyyə sahəsindəki uğurları araşdırılıb. Eləcə də İkinci dünya müharibəsi illərində Ə.Əliyevin İrandakı missiyası dərs vəsaitində geniş təhlil edilib və onun fəaliyyətinin tarixi əhəmiyyəti göstərilib. Ə.Əliyevin 1942-ci ildən sonra Dağıstana rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi çox mühüm təşkilatçılıq, yaradıcılıq, xilaskarlıq missiyası kitabda hərtərəfli əks olunub və Azərbaycan xalqının görkəmli ictimai-siyasi xadimi kimi əldə etdiyi böyük uğurlara geniş yer ayrılıb.

Qeyd edilib ki, XX əsr Azərbaycan dövlətçilik tarixinin öyrənilməsində dəyərli bir mənbə olan kitab tibbi işçiləri, elmi tədqiqatçılar, tələbələr və aspirantlar üçün nəzərdə tutulsa da, geniş oxucu kütləsi üçün də faydalı olacaq.

Sonda ATU-nun Daxili xəstəliklər kafedrasının professoru Tamfira Əliyeva babası ilə bağlı yaddaqalan, kövrək xatirələrini dilə gətirib və göstərilən diqqət və qayğıya görə ailə üzvləri adından universitetin rektoru, professor Gəray Gəraybəyliyə, İctimai fənlər kafedrasının rəhbərliyinə, eləcə də kitabın müəllifinə və toplantı iştirakçılarına minnətdarlığını bildirib.



# “Pediatriyaya müasir yanaşma” mövzusunda beynəlxalq konfrans keçirilib

## Uşaqların sağlamlığının qorunması sahəsində biliklərin təkmilləşdirilməsi səhiyyəmizin prioritetlərindən biridir

**Azərbaycan Tibb Universitetində "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər davam edir. Noyabrın 15-də ATU-nun Tədris Terapevtik Klinikasında bu qəbildən “Pediatriyaya müasir yanaşma” mövzusunda daha bir beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Torpaqlarımızın azad edilməsi uğrunda həyatlarını qurban verən şəhidlərimizin xatirəsinin anılması ilə başlayan konfransı giriş nitqi ilə universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov açıb. Azərbaycan elminin və səhiyyəsinin inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərinin olduğunu vurğulayan prorektor, eyni zamanda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Milli Ordumuzun böyük qələbə qazandığını, dövlət suverenliyimizin tamamilə bərpa edildiyini qürur hissi ilə xatırladıb.

Bundan sonra pediatriyanın ən aktual məsələlərini müzakirəyə çıxaran konfransın əhəmiyyətindən danışaraq, burada müxtəlif mövzularda maraqlı məruzələrin dinləniləcəyini deyib. Tələbələrin və rezidenturada təhsil alan gənc həkimlərin konfransda iştirakının təqdirəlayiq hal olduğunu söyləyən R.Bəylərov bildirib ki, respublikamızda pediatriyanın inkişafı çox sürətlə gedir: “Təkcə Bakıda deyil, bölgələrdə də müasir tibb ocaqları, hətta dializ mərkəzləri açılır. Ölkə rəhbərliyi neonatal mərkəzlərin açılmasına da xüsusi diqqət ayırır və bu amillər ilk növbədə uşaq ölümünün azalmasına xidmət göstərir. Çünki bütün dünyada cəmiyyəti qiymətləndirmə kriteriyalarından biri də uşaq ölümüdür. Son zamanlar Azərbaycanda uşaq ölümünün xeyli azalması dövlətimizin bu məsələyə böyük qayğı ilə yanaşmasının nəticəsidir. Praktiki fəaliyyətlə yanaşı, gənc mütəxəssislərin elmi istiqamətə maraq göstərməsi də müsbət haldır”.

Amma qazanılan nailiyyətlərə baxmayaraq, qarşıda görüləcək işlərin də çox olduğunu bildirən prorektor, çıxışının sonunda tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar arzulayıb.

II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Nailə Sultanova çıxışına Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdən gətirdiyi sitatla başlayıb: “Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır, Azərbaycan gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycan gənclərindən və uşaqlarından asılıdır”.

Məhz bu nöqteyi-nəzərdən uşaqlarımızın sağlamlığının qorunması sahəsində biliklərin təkmilləşdirilməsini səhiyyəmizin prioritetlərindən biri kimi dəyərləndirən N.Sultanova qeyd edib ki, həm elmi, həm də təcrübi istiqamətdə ATU-nun verdiyi töhfələr danılmazdır. Həmçinin genefondumuzun qorunmasına diqqət çəkən professor bildirib ki, görülən işlər sırasında uşaq xəstəliklərinin erkən diaqnostikası, uşaqlar arasında yayılan patologiyaların profilaktikasında aparılan icbari dispanserizasiyanın mühüm rolu var.

“Bu günkü konfransımızın keçirilməsində də əsas məqsəd pediatriyaya aid olan xəstəliklər haqqında müxtəlif ixtisaslar üzrə mütəxəssislərin məruzələrini dinləyərək, fikir mübadiləsi aparmaqdır. Əminəm ki, konfransımız konstruktiv, səmərəli keçəcək, onun tövsiyə və təkliflərindən praktik həkimlərimiz, gənc kolleqalarımız, doktorant və dissertantlarımız faydalanacaq” – deyə o vurğulayıb.





Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva və Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian da konfransın açılış mərasimində çıxış ediblər. Onlar allerqoloqların, otolarinqoloqların, eləcə də digər mütəxəssislərin pediatrlarla sıx əməkdaşlığından söhbət açaraq, konfransın təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

Konfrans öz işini 3 sessiya iclası ilə davam etdirib. I sessiya iclasına professorlar Rauf Bəylərov, Lalə Allahverdiyeva və Vəfa Pənahian, II sessiya iclasına professorlar Nina Miroşniçenko və Nailə Sultanova, III sessiya iclasına isə professorlar Hüseyn Qabulov və Ələkbər Həsənov sədrlik ediblər.

I sessiyada professor L.Allahverdiyevanın “Uşaqlarda xroniki öskürəyin diaqnostikası və müalicəsi”, professor V.Pənahianın “Xroniki tonzilitin müalicəsinə müasir yanaşma”, ADHTİ-nin Pediatriya kafedrasının müdiri, professor Rəqsanə Məmmədovanın “Uşaqlarda bronxial astmaya müasir yanaşma” və həmin kafedranın dosenti Zemfira Quliyevanın “Uşaqlarda virus diareyasının diaqnostika və müalicəsi” mövzularında məruzələri maraqla dinlənilib. II sessiyada da pediatriyanın aktual problemlərinə toxunulub. ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosentləri Nurəngiz Hacıyeva “Praktik pediatriyada mukozal iltihab”, Gündüz Əhmədov “Uşaqlarda cinsi inkişaf və onun qiymətləndirilməsi”, ADHTİ-nin Pediatriya kafedrasının dosenti Sənubər Vəliyeva “İnfeksion səpgilərin diferensial diaqnostikası”, ATU-nun Ailə təbabəti kafedrasının professoru Əlizamin Sadıqov “Nozokomial pnevmoniya. Diaqnostika və müalicəyə müasir yanaşma” və Yevdokimov adına Moskva Dövlət Tibb və Stomatoloji Universitetin Otolarinqologiya kafedrasının professoru Nina Miroşniçenko “Yuxarı tənəffüs yollarının respirator infeksion xəstəliklərinin müalicə alqoritmləri” mövzularında araşdırmalarını diqqətə çatdırıblar. III sessiyada isə ATU-nun II Uşaq xəstəlikləri kafedrasının assistenti Qoşqar İsmayılovun “Seliakiya diaqnostika və müalicəsinə müasir yanaşma”, Respublika Diaqnostika Mərkəzinin pediatr-neonatoloqu Təzibə Mirzəliyevanın “Pediatrik praktikada qıcolmaların diferensial diaqnostikası” və Mərkəzi Gömrük Hospitalının pediatr-neonatoloq-reanimatoloqu Təranə Göyüşovanın “İnfantil kolik” mövzusunda elmi təqdimatları olub.

Hər sessiya iclasının sonunda elmi müzakirələr aparılıb və konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Arif MƏMMƏDLİ**

# "Həkim xəstənin sirdaşı olmalıdır"

## Tanınmış türk aktyor-həkim Ercan Kesal universitetimizin tələbələri ilə görüşüb





**Tanınmış türk aktyor, rejissor, ssenarist, yazıçı və həkim Ercan Kesalın Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüşü olub. Görüş zamanı tanınmış aktyor-həkim özü barədə tələbələrə ətraflı məlumat verib. Əlavə edib ki, həkimlik müqəddəs və bənzərsiz bir sənətdir. Çünki onlar xəstələrə şəfa verir və yenidən həyata qaytarır: "Əgər xəstələrə şəfqət və həssaslıqla yanaşsanız, onlar ən yaxınlarına demədikləri ürək sözlərini sizə deyə, sirlərini sizinlə bölüşə bilər. Bu zaman təkcə onlara şəfqət verən bir həkim yox, həm də sirdaşı olacaqsınız".**

Ercan Kesalın fikrincə, yaxşı həkim olmaq üçün yaxşı ədəbiyyatçı olmaq lazımdır: "Əgər siz həyat hekayələrindən bəhs edən çoxlu kitablar, əsərlər, şeirlər oxusanız, yaxşı filmləri seyr edib, insanı duyğulandıran musiqiləri dinləsəniz, yaxşı həkim ola bilərsiniz. Ən başlıcası isə, yaxşı həkim olmaq üçün mütləq sənə müraciət edən xəstələri dinləməlisiniz. Dinləməli, eyni zamanda onlara öz şəfqətinizi verməlisiniz. Könlünü oxşamalı, ruhuna sığal çəkməlisiniz. Xəstələr sizdə ilk olaraq bir şəfqət hiss etməli, sizə inanmalıdır ki, etdiyiniz müalicə öz nəticəsini göstərsin".

E.Kesal 1984-cü ildə Ege Universitetinin Tibb fakültəsindən məzun olub. Bir müddət Ankara şəhəri, Kesin, Bala və digər qəsəbələrdə tibb ocaqlarında çalışıb. Sərbəst həkimlik peşəsi ilə məşğul olan zaman isə "Tətbiqi psixologiya və sosial antropologiya" ixtisası üzrə təhsil alıb.

Onun aktyorluq sənətini seçməsində həyat yoldaşı Nazan Kesalın müstəsna rolu olub: "Mən ədəbiyyatı, poeziyanı sevməklə yanaşı, aktyorluğu da çox sevirdim. Görünür, məndə aktyorluq qabiliyyətinin olduğunu həyat yoldaşım Nazan xanım hiss edə bilibmiş. Ona görə də məni 2002-ci ildə Nuri Bilge Ceylanla tanış etdi. O mənə "Uzaq" filmində epizodik bir rol təklif etdi. Oynadım və bununla da aktyorluq karyeram başladı. Sonra onun çəkdiyi "Üç meymun" filminə dəvət aldım. Filmdə Sərvət rolunu uğurla ifa etdim".

E.Kesal Türkiyənin tanınmış şair və yazarlarının daim onların qonaqları olduğunu, şer məclislərinin qurulduğunu, şairlərin şeirləri və söhbətlərini maraqla dinlədiyini tələbələrin diqqətinə çatdırıb. Bildirib ki, düşdüyü mühit onun poeziyaya, ədəbiyyata marağının artmasına səbəb olub: "Evimiz qonaq-qaralı olardı. Türkiyənin tanınmış ədəbiyyat adamlarını, sənətçilərini evimizdə görmüşəm. Onlardan Ahmet Erhan, Azer Yaran, Behçet Aysan, Adnan Özer, Murat Kalaycıoğlu, Tolqa Çandar, Erkan Oba, Abdullah Gökün və başqalarının adlarını ehtiramla çəkə bilərəm. Hərəsi bir dünya idi. Mən onlardan ayrı-ayrılıqda çox şey öyrəndim".

Tanınmış həkim-aktyor onun kimi həkimliklə başqa sənətləri birləşdirmək istəyən tələbələrə tövsiyə də verib. Deyib ki, kim olursan-ol, çoxlu mütaliə etməli, özünü həyatdan kənar hesab etməməlisən: "Cəmiyyətlə qaynayıb-qarışmalı, insanları dinləməli, onların problem və dərdlərinə şərik olmalısan. Əgər səndən bir şey asılı olarsa, yardımını əsirgəməməlisən. O zaman seviləcək, yad ediləcək, unudulmayacaqsan. Sadaladığım xüsusiyyətlər isə, deyərdim ki, ən çox sizlərə, həkimlik peşəsi ilə məşğul olanlara aiddir".

Ercan Kesal görüş zamanı tələbələri maraqlandıran sualları da cavablandırıb, kitablarını onlara hədiyyə edib. Onun "Əvvəl zaman", "Öz işığında yanan adam", "Həkimlik sənətləri", "Əslində...", "Nəsibsiz adayız" və s. kitabları Tibb Universitetinin tələbələri tərəfindən böyük həvəslə qəbul edilib.

Xoş əhval-ruhiyyədə keçən görüşün sonunda Ercan Kesal tələbələrlə xatirə şəkli çəkdirib.

**Qabil ZİMİSTANOĞLU**

**Noyabrın 9-dan 11-dək Moskvada görkəmli uşaq cərrahı, akademik Yuri Fyodoroviç İsakovun 100 illik yubileyinə həsr olunmuş Rusiya Uşaq Cərrahlarının IX Forumu keçirilib. Uşaq cərrahiyyəsi üzrə ən böyük tədbir hesab edilən bu forum keçmiş sovet respublikalarından mütəxəssisləri bir yerə toplayan əlamətdar hadisə idi.**

# Uşaq cərrahlarımız Rusiyada forumda iştirak edib

Forumda uşaq cərrahiyyəsi xəstəxanaları, elmi-tədqiqat tibb mərkəzlərinin cərrahiyyə şöbələri, eləcə də Rusiya və keçmiş ittifaq ölkələrindəki universitetlərin uşaq cərrahiyyəsi kafedralarının həkimləri iştirak edirdi. Tədbirə Rusiya Uşaq Cərrahları Assosiasiyasının üzvləri, Azərbaycan Tibb Universitetinin Uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov və kafedranın assistenti Namiq Xəlilov da qatılıblar.




Forumun açılışında əvvəlcə S.Ternovski adına mükafatın təqdimatı olub. Sonra akademik Y.F.İsakovun 100 illiyindən bəhs edən film nümayiş olunub və professor A.Razumovski akademikin həyat və fəaliyyəti ilə bağlı çıxış edib. Üç gün davam edən forum çərçivəsində ATU-nun əməkdaşları forumun işçi qrupunun iclaslarında, həmçinin Rusiya Uşaq Cərrahlarının Assosiasiyasının Elmi Şurasında və dəyirmi masada iştirak ediblər.

Uşaq cərrahiyyəsinin aktual problemlərinin önə çəkildiyi bu forumda ənənəvi olaraq "Mən bunu necə edə bilərəm?" mövzusunda videosessiya, eyni zamanda dəyirmi masa, master-klass və simpoziumlar keçirilib.

Forumun sonunda gənc alimlər üçün müsabiqənin laureatlarına mükafatlar verilib və V.Derjavin adına növbəti mükafatın təqdimetmə mərasimi baş tutub.

**Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Kardiologiya İnstitutu (ETKİ) tərəfindən Azərbaycan Tibb Universitetində "Ürəyinizi qoruyun" layihəsi çərçivəsində maarifləndirmə aksiyası keçirilib.**



# Tələbələrimiz "Ürəyinizi qoruyun" layihəsinə cəlb olunub

İnstitutun elmi katibi, tibb üzrə fəlsəfə doktoru Təranə Cavadova müasir dövrdə sağlam həyat tərzinin təbliği və ürək xəstəliklərinin artması baxımından layihənin əhəmiyyətindən danışıb.

Tədbirdə ürək-damar xəstəliklərinə qarşı mübarizə aparmaq məqsədilə tələbələr üçün sağlam həyat tərzi və zərərli vərdişlərdən qorunma haqqında videoçarxlar nümayiş olunub, maarifləndirici bukletlər paylanılıb, böyük elmi işçi Mahir Bağırov və tibb üzrə fəlsəfə doktoru Rafiq Yusiflinin "Sağlam genefonda addım ataq" mövzusunda məruzələri dinlənilib.

Qeyd edək ki, aksiya çərçivəsində iştirakçılar ilkin müayinələrə (boy, çəki, təzyiq və nəbzin ölçülməsi) dəvət edilib, onlara ürək-damar xəstəliklərinin əsas risk amilləri barədə məlumat verilib.

Tədbir tələbələrin böyük marağına səbəb olub.

# Qadın və uşaqların sağlamlığı həm də demoqrafiya məsələsidir

## Beynəlxalq Vaxtından Əvvəl Doğulan Uşaqlar Gününə həsr olunmuş konfrans keçirilib

**Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu və Azərbaycan Pediatrlar Assosiasiyasının birgə təşkilatçılığı ilə "Beynəlxalq Vaxtından Əvvəl Doğulan Uşaqlar Günü"nə həsr olunmuş konfrans keçirilib.**

Konfransı açan Pediatriya İnstitutunun direktoru t.ü.f.d. Aynur Poluxova bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd vaxtından əvvəl doğulan körpələrin sağ qalması üçün səylərin artırılması, vaxtından əvvəl doğum prosesinin baş vermə riskinin minimuma endirilməsi, hamilə qadınların düzgün qidalanması, sağlamlıqlarının qorunması üçün maddi, mənəvi və tibbi yardımın göstərilməsidir.




Konfransda Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun şöbə müdiri, t.ü.f.d. Rüstəm Hüseynov, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, MDB Ölkələrinin Pediatrları Federasiyasının vitse-prezidenti, Azərbaycan Tibb Universitetinin dosenti, t.ü.f.d. Təranə Tağı-zadə və Türkiyənin Ege Universitetinin professoru Mehmet Yalaz çıxış ediblər.

Çıxışlarda 2023-cü ildəki bütün əlamətdar günlərin fərqli ovqatda qarşılandığı, bu il Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinin tamam olduğu, Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Zəfərin üçüncü ildönümünün qeyd edildiyi, eləcə də ölkəmizdə Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinin təntənə ilə keçirildiyi vurğulanıb.

Təranə Tağı-zadə 1930-cu ildən etibarən Azərbaycanda uşaqların fiziki və əqli sağlamlığına qayğı məqsədilə Azərbaycan Pediatrlar Assosiasiyasının həyata keçirdiyi işlər, ana və uşaqlar arasında sağlam həyat tərzinin təbliği və gənc ailələrin maarifləndirilməsi istiqamətində xidmətlərlə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. Qeyd edib ki, qadın və uşaqların sağlamlığına daim diqqət yetirilməsi dövlətimizin strategiyasının əsasını təşkil edir.

T.Tağı-zadə vaxtından əvvəl doğulmuş kritik az çəkili körpələrin reanimasiya və intensiv terapiyasının uğurla aparılmasının, standartlara uyğun yüksək tibbi xidmətin dövlətin demoqrafik göstəricilərinə də müsbət təsir göstərdiyini deyib. O, bir müddət öncə 600 qram bədən kütləsi ilə dünyaya gələn körpənin sağlam inkişafına nail olduqları üçün fədakar pediatr və neonatoloqlara minnətdarlığını bildirib.

Sonra Türkiyənin Ege Universiteti, N.İ. Piroqov adına Rusiya Milli Tədqiqat Tibb Universiteti və Qazaxıstan Tibb Universitetindən dəvət edilən ekspertlərin məruzələri dinlənilib.

Tədbirdə vaxtından əvvəl doğulmuş uşaqların sağlamlığı, cəmiyyətə inteqrasiya edilməsi istiqamətində səhiyyə sistemində əhəmiyyətli addımların atıldığı bildirilib. Qeyd edilib ki, son illərdə vaxtından əvvəl doğuşlarda artım müşahidə olunur. Natiqlər bu mənada yenidoğulmuşların qısa zaman çərçivəsində sağlamlıq problemlərinin aradan qaldırılması və reanimasiyasında müasir tibbi avadanlıqların effektiv rolundan bəhs edib. Çıxışlarda erkən doğulmuş uşaqlarla bağlı həyata keçirilən beynəlxalq layihələr, görülmüş işlər və ölkəmizin bu sahədəki aparıcı mütəxəssisləri tərəfindən göstərilən tibbi xidmətlər barədə danışılıb.

Tədbirin sonunda vaxtından əvvəl doğulmuş və sağlam həyatlarına davam edən bir qrup uşağa və valideynlərinə hədiyyələr təqdim edilib.





# İki kafedranın birgə seminarı

## “İşemik insultun diaqnostikası, müalicəsi və reabilitasiyasının özəllikləri” müzakirəyə çıxarılıb

**ATU-nun Tədris Terapevtik Klinikasında rezidentlər və gənc həkimlər üçün “İşemik insultun diaqnostikası, müalicəsi və reabilitasiyasının özəllikləri” mövzusunda seminar keçirilib. Nevrologiya, Fizioterapiya və tibbi reabilitasiya kafedralarının, Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə baş tutan seminara adıçəkilən şöbənin müdir müavini, assistent Namiq Xəlilov moderatorluq edib.**

Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva bildirib ki, fərqli mütəxəssislərin ayrı-ayrı mövzularda rezidentlər qarşısında çıxış etməsi hər zaman maraqla qarşılanır. Rezidentlərin özlərinin də seçdikləri ixtisas üzrə mühazirələr oxuması onlarda ikiqat məsuliyyət yaradır, gələcək fəaliyyətlərinə böyük stimul verir.

Seminarda çıxış edən Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli insultun ölüm hallarına görə dünyada ilk yerlərdən birini tutduğunu, həmçinin ağır əlilliyə gətirib çıxardığını söyləyib. Onun sözlərinə görə, məhz bu baxımdan insultla mübarizə aktual olaraq qalır, onun tiplərinin, risk faktorlarının araşdırılması və bu araşdırmalarda rezidentlərin iştirakı mühüm əhəmiyyət daşıyır.

Bu günkü seminarın işemik insultun etiologiyası, patogenezi, klinikası, müayinə və müalicəsinə həsr edildiyini bildirən Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev insultun reabilitasiyasının da aktual bir məsələ olduğunu diqqətə çatdırıb: “İnsult insanların həyat keyfiyyətinə, əmək qabiliyyətinə çox mənfi təsir göstərir. Hər il yeni müalicə üsulları tətbiq olunur. Ölkəmizdə də bu sahəyə xüsusi diqqət ayrılır. Biz də peşəkar kadrların hazırlanması üçün mümkün olanı etməyə çalışırıq. Hesab edirəm ki, bu seminar gənc rezidentlər, o cümlədən fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə təhsil alan tələbələr üçün maraqlı olacaq”.

Bundan sonra mövzuya dair məruzələrin təqdimatına başlanılıb. Nevrologiya kafedrasının dosenti Aygün Musayeva işemik insult haqqında danışaraq bildirib ki, bu xəstəlik həm yaşlı insanlarda əlilliyin aparıcı səbəbidir, həm də onkoloji və ürək xəstəliklərindən sonra ölüm hallarının 3-cü səbəbi kimi göstərilir. Bundan əlavə, işemik insult - müalicəsi böyük məsrəflər tələb edən bir xəstəlikdir. Xəstənin özünə, ailəsinə, eləcə də cəmiyyətə mənəvi və sosial yükdür. İşemik insultun risk faktorlarından və əlamətlərindən söhbət açan mütəxəssis qeyd edib ki, bu əlamətlərin davamı 24 saatdan çox olduqda, həmçinin KT və MRT-də ocaqlar göründükdə, işemik insult diaqnozu qoyulur. Ən vacibi müalicənin vaxtında aparılmasıdır ki, əlilliyin və ölümün qarşısını almaq mümkün olsun.

Seminarda rezidentlərin məruzələri də dinlənilib. Nevrologiya kafedrasının rezidenti Jalə İbrahimova işemik insultun klinik halından, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının rezidenti Ləman Bəşirli isə insultdan sonrakı reabilitasiya tədbirlərindən danışıblar.

Geniş diskussiya şəraitində keçən seminarda məruzəçilər mövzuya dair sualları cavablandırıblar.

**ATU-nun Tədris Cərrahiyyə klinikasında Rezidentura və magistratura şöbəsi, Urologiya kafedrası və Azərbaycan Endouroloji Cəmiyyəti rezidentlər üçün birgə seminar keçirib. Seminarın mövzusu urologiyanın ən aktual problemlərindən biri olan prostat vəzinin xoşxassəli hiperplaziyasının ən müasir cərrahi müalicəsinə həsr edilmişdi.**



# Prostat vəzi xəstəlikləri insanlar arasında niyə populyardır?

## Uroloqlarımız ən müasir üsulla əməliyyatlar icra edib

Tədbiri giriş sözü ilə açan Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov indiyədək keçirilən bu cür elmi tədbirlərin rezidentlər üçün faydasından danışıb.

Sonra Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev “Prostat vəzinin anatomiyası, fiziologiyası və xoşxassəli hiperplaziyanın patogenezi”, t.ü.f.d. Asif Cahangirov “Müxtəlif endoskopik cərrahi müalicə üsullarının müqayisəli təhlili”, TCK-nın Urologiya şöbəsinin müdiri, dosent Fikrət Əhmədov isə “TUR - Prostatektomiya zamanı və sonraki dövrdə yaranmış fəsadların təhlili və onların profilaktikası” mövzularında məruzə ilə çıxış ediblər. Çıxışlarda qeyd edilib ki, prostat vəzi və onun xəstəlikləri insanlar arasında çox populyardır. Bunun da əsas səbəbi prostat xəstəliklərinin geniş yayılması və aktuallığıdır.

Məruzəçilər bildiriblər ki, dünyada kişilər arasında bütün onkoloji xəstəliklər səbəbindən baş verən ölüm hallarına görə prostat vəzi xərçəngi ikinci yerdədir. Onlar əlavə ediblər ki, prostat vəzi “kişinin ikinci ürəyi” sayılır, çünki onun sidik ifrazı, cinsi əlaqə, müvazinətin qorunmasında böyük rolu var.

Çıxışlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb və seminar sual- cavabla yekunlaşıb.

Sonra uroloji xəstəliklər üzrə təhsil alan rezidentlər Karl Storz tərəfindən təqdim edilən simulyatorda praktiki vərdişləri öyrəniblər. Sonda professor R.Nağıyev və dosent F.Əhmədov tərəfindən ən müasir üsul olan plazmokinetik TUR vasitəsi ilə bir-birinin ardınca iki əməliyyat həyata keçirilib. Aparılan əməliyyatda rezidentlər də iştirak edib və bu yeni üsulun müəyyən etaplarını onlar sərbəst icra ediblər.

# Beyin toxumasının kiçilməsi ağır fəsadlara yol açır

## Dosent Rövşən Xəlilzadə: Beyin atrofiyası koqnitiv, hərəkət və ruhi funksiyalarda pozğunluğa səbəb olur

**“Beyin atrofiyası - beyin toxumasının kiçilməsi və geriyə inkişaf prosesini ifadə edən tibbi termindir. Bu proses beyin hüceyrələrinin və əlaqələrin itkisi ilə təsvir olunur. Beyin atrofiyası bir sıra müxtəlif səbəblərlə əlaqələndirilir. Səbəblərin kompleksliyi bu vəziyyətin diaqnozu, müalicəsi və nəticələrinin anlaşılmasını çətinləşdirə bilər”. Bu sözləri ATU-nun Neyrocərrahiyyə kafedrasının müdiri, dosent Rövşən Xəlilzadə “Təbib” qəzetinə açıqlamasında deyib.**

O, bildirib ki, beyin atrofiyası müxtəlif səbəblərlə əlaqələndirilir və yaşla birlikdə artan xəstəlikdir: “Beyin atrofiyasına səbəb olan patologiyalardan biri neyrodegenerativ Alzheimer xəstəliyidir. Əgər beyin hüceyrələri zədə görür və yaxud ölürsə, beyin toxuması kiçilir. Bir başqa xəstəlik olan multipl skleroz (MS) zamanı immun sistemi orqanizmdə patolojik olaraq, sinir hüceyrələrinə hücum edir və beyin toxumasının kiçilməsinə səbəb olur. Əgər travmatik beyin yaralanmaları nəticəsində ətraf beyin toxuması zərər görərsə və beyin toxumasında itki baş verərsə, o zaman cərrahi əməliyyata ehtiyac duyulur. Bundan başqa, insult, yüksək təzyiq və digər vaskulyar xəstəliklər də beyin toxumasının kiçilməsinə gətirib çıxarır. Çünki beynə kifayət qədər oksigen və qan axını təmin edilmir.

Bəzi beyin infeksiyaları (baş beyin exinokokku, meningit, meningoensefalit, beyin absesi və s.) beyin toxumasının iltihabına səbəb olur. Bəzi genetik xəstəliklər də beynin boz maddəsinin normal inkişafına mane ola və beyin atrofiyasına gətirib çıxara bilir. Beyin atrofiyasının simptomları yaddaş problemləri, unutqanlıq, iradi funksiyaların azalması (düşüncə, problem həll etmə, diqqət əskikliyi), koordinasiya və müvazinət pozuntusu, sinir-əzələ keçiriciliyinin pozulması, nitq qabiliyyətinin zəifləməsi, artan nevroloji şikayətlərdir (məsələn, Alzheimer və Parkinson xəstəliyi)”.

Beyin atrofiyasının nəticələri və diaqnostikasından da danışan mütəxəssis qeyd edib ki, beyin toxumasının itkisi koqnitiv funksiyalarda pozğunluq yaratdığından yaddaş, düşünmə, qərar vermə və məsələ həll etmə kimi bacarıqlara da təsir göstərir: “Məsələn, hərəkət pozğunluğu haqda danışa bilərik. Beyin toxumasının kiçilməsi beynin bədən üzərində nəzarətinə təsir edə və koordinasiya problemlərinə səbəb ola bilər. Bu vəziyyət müvazinət pozğunluğu və yerimədə çətinliklər kimi problemlərə gətirib çıxarır. Hətta beyin atrofiyası şəxsiyyət dəyişiklikləri, depressiya, təşviş, həyəcan, emosional instabillik kimi ruhi problemləri inkişaf etdirir. Bundan başqa, beyin atrofiyası zamanı günlük rutin həyat fəaliyyətini yerinə yetirmədə çətinləşmə və aktivlik keyfiyyətində azalma müşahidə edilir. Bu ən sıx menopauzada görünür. Menopauzayla birgə yumurtalıqlardan estrogen ifraz oluna bilməməsi sadəcə menstruasiyanın pozulma problemləri deyil, eyni zamanda nevroloji simptomların yaranmasına səbəb olur. Beyin atrofiyasına maqnit rezonans tomoqrafiya (MRT) və ya kompüter tomoqrafiya (KT) kimi instrumental müayinə üsulları ilə diaqnoz qoyulur. Əgər beyin atrofiyası altda yatan səbəblərlə əlaqələndirilirsə, bu xəstəliyin müalicəsi birincildir. Məsələn,



atrofiyanın səbəbi Alzheimer xəstəliyidirsə, bu xəstəliyin simptomlarının idarə edilməsi üçün dərmanlardan istifadə edilə bilər. Bundan başqa, hərəkət və kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün fiziki və danışıq terapiyası məsləhət görülür. Simptomatik müalicə zamanı bəzi dərmanlardan istifadə edilə bilər. Lakin xüsusi hallarda neyrocərrahi müdaxilələrə ehtiyac duyulduğunu da yaddan çıxartmaq olmaz”.

R.Xəlilzadə onu da vurğulayıb ki, beyin atrofiyasından əziyyət çəkən insanların həyat keyfiyyətini artırmaq üçün psixososial dəstək və təcili yardım tələb olunur: “Yuxarıda söylədiyim kimi, beyin atrofiyası beyin toxumasının itkisi ilə təsvir edilən bir vəziyyətdir və bir çox müxtəlif səbəblərlə əlaqələndirilir. Bu vəziyyət koqnitiv, hərəkət və ruhi funksiyalarda pozğunluğa gətirib çıxardığından, diaqnoz və müalicəsi səbəblərdən asılı olaraq dəyişir. Düzgün diaqnoz və uyğun müalicə bu insanların həyat keyfiyyətini artırır və simptomların idarə olunmasına yardım edir”.

**M.ƏLƏKBƏRLİ**

# Türkiyəli mütəxəssislər ATU-nun əməkdaşlarına təlim keçib




**Noyabrın 13-17-də ATU-nun Əczaçılıq toksikologiyası və kimya kafedrasında Azərbaycanın kanalizasiya sularında psixoaktiv maddələrin analizi layihəsi çərçivəsində "Madde Kullanımı İle Mücadelede Atık Su Epidemiyolojisinin Kullanılması Eğitimi" adlı təlim təşkil olunub.**

Təlim ATU və Türkiyənin Ankara Universiteti arasında imzalanmış memorandum çərçivəsində Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyi yanında TİKA-nın (Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi) dəstəyi ilə həyata keçirilib. Türkiyədən gələn 5 nəfərdən ibarət nümayəndə heyəti Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşlarına "Kanalizasiya sularında psixoaktiv maddələrin analizi" mövzusunda təlim keçiblər.

Nümayəndə heyətinə Ege Universitetindən professor Serap Annette Akgür, Duygu Yeşim Ovat, Ankara Universitetindən professor Nebile Dağlıoğlu, Çukurova Universitetindən, dr. Evşen Güzel və Aslı Atasoy Aydın daxil idi.

Görüşdə TİKA-nın koordinatoru Fatih Yılmaz da iştirak edib.

Tədbirdən sonra Türkiyədən gələn qonaqlar və kafedra əməkdaşları ATU-nun Anatomiya kafedrasının muzeyində də olublar. Anatomiya kafedrasının müdiri, dosent A.Abdullayev, professorlar M.Allahverdiyev və N.Mövsümov qonaqları muzey eksponatları ilə tanış ediblər.

Daha sonra Əczaçılıq kimyası kafedrasının laboratoriyası ilə tanış olan nümayəndə heyətini ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov da qəbul edib və gələcək layihələr barədə müzakirələr aparılıb.

# Niğde Universitetinin tələbələrinə Azərbaycanın Zəfəri haqda məlumat verilib



**Azərbaycan Tibb Universitetinin Patoloji anatomiya kafedrasının assistenti Arzu İbişova Türk Dövlətləri Təşkilatı Türk Universitetləri Birliyinin "Orhun" mübadilə proqramı çərçivəsində Türkiyənin Niğde Ömer Halisdemir Universitetində (NÖHÜ) olub.**

O, Tibb fakültəsinin Tibbi patologiya kafedrasında iki həftəlik pedaqoji fəaliyyət həyata keçirib, imtahanda iştirak edib, o cümlədən müəllimlərlə fikir mübadiləsi aparıb. Səfər ərzində A.İbişova Tibb fakültəsinin dekanı, professor Üner Kayabaş və universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri dr. Hülya Üründü ilə görüşüb. Görüşlərdə hər iki universitetin uyğun kafedraları arasında tədris və elmi istiqamətlərdə əməkdaşlıq barədə müzakirələr aparılıb. Əməkdaşımız, həmçinin 44 günlük Vətən müharibəsində Azərbaycannın qazandığı böyük Zəfər və bu ilin sentyabrında antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin tam bərpası haqqında müəllim və tələbələrə geniş məlumatlar verib.

# Atatürk Universitetinin professoru tələbələrimizə mühazirə oxuyub

**Türkiyə Atatürk Universitetinin Daxili xəstəliklər və tibb bacılığı kafedrasının professoru Mehtap Kavurmaçının ATU-nun Ailə təbabəti kafedrasında İctimai səhiyyə fakültəsinin tibb bacısı ixtisası üzrə təhsil alan tələbələri və kafedranın əməkdaşları ilə görüşü keçirilib.**



Toplantını açan Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayev son illərdə Azərbaycan Tibb Universiteti ilə Türkiyənin bir çox universitetləri arasında səmərəli əlaqələr qurulduğunu, həmçinin müəllim və tələbə mübadiləsinin genişləndiyini qeyd edib.

Professor Mehtab Kavurmaçı təmsil etdiyi universitetdə tədrisin aparılması haqqında geniş məlumat verib və "Kardiovaskulyar sistem xəstəlikləri və tibb bacılığı" mövzusunda mühazirə oxuyub.

# Bu dəfə rezidentlər dəri xəstəliklərindən danışıb

**Azərbaycan Tibb Universitetinin Rezidentura və magistratura şöbəsi Dermatovenerologiya kafedrası ilə birgə rezidentlər üçün növbəti seminar keçirib.**





Tədbir iştirakçılarını salamlayan kafedranın müdiri, professor Fərid Mahmudov son zamanlar bu seminarların ATU-nun ayrı-ayrı klinikaları və kafedralarında ardıcıllıqla keçirilməsinin yaxşı bir ənənə halını aldığını bildirib. O, bu elmi toplantıların rezidentlərin və eləcə də bu sahəni seçən gənc həkimlərin gələcək peşə fəaliyyətlərində müsbət rolu olduğunu vurğulayıb.

Bundan sonra Məhluqə Əliyeva, İlahə Abdullayeva, Egün Ayse, Tünzalə Feyziyeva, Egün Aysel və Alarmo Alharesben dermatologiyanın müxtəlif sahələrini əhatə edən xəstəliklər barədə məlumat veriblər. Məruzəçilər Azərbaycan, türk və ingilis dillərində qırmızı yastı dəmirov, övrə, dəridə dərman preparatlarına qarşı reaksiyalar, atopik dermatit və s. mövzularda çıxış ediblər. Onlar son dövrlər dəri xəstəliklərinin çox yayıldığını vurğulayaraq, kütləvi araşdırmalara istinad ediblər. Məruzələrdə insanların əsasən dermatozlardan əziyyət çəkdiyi, lakin müalicəyə ehtiyacı olanların az hissəsinin həkimə az müraciət etdiyi göstərilib.

Çıxışlarda dəri xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasından bəhs edilərək, onların əmələ gəlmə səbəblərinin müxtəlif olduğu bildirilib. Qeyd edilib ki, dəri həmişə xarici mühit faktorlarının təsirinə məruz qaldığından bakteriyalar, viruslar, ibtidailər, göbələklər və s. daxili orqanlarla sıx əlaqədədir. Buna görə də daxili orqanların hər hansı bir xəstəliyi dəriyə də təsir göstərə bilər.

Dermatovenerologiya kafedrasının professor-müəllim heyətinin də qatıldığı seminar sual-cavabla yekunlaşıb.

# COVID-19-un yeni variantı qorxulu olmasa da, çox yoluxucudur

## Dosent Vüqar Cavadzadə koronavirus infeksiyasının "Eris" variantının xüsusiyyətlərini şərh edib




**"Məlum olduğu kimi COVID-19 infeksiyasına (SARS-CoV-2) ilk dəfə 2019-cu ilin dekabr ayında Çinin Uhan şəhərində rast gəlinib və sonradan bütün dünyaya yayılıb. Ümumdünya Səhiyyə Təşkilatı 2023-cü il mayın 5-də COVID-19 pandemiyasının bitdiyini elan etsə də, hələ də dünyada yoluxma hallarına rast gəlinir". Bunları ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Vüqar Cavadzadə koronavirus infeksiyasının mutasiya olunmuş "Eris" variantının xüsusiyyətlərini şərh edərkən deyib.**

Onun sözlərinə görə, COVID-19 infeksiyası çox sürətlə mutasiyaya uğrayaraq çoxsaylı variantların əmələ gəlməsinə səbəb olub: "Bu variantlardan biri də Omicron (B.1.1.529) variantıdır. Omicron variantı ilk dəfə 4 noyabr 2021-ci ildə Cənubi Afrikada aşkar edilib və onun da BA.1 (B.1.1.529.1), BA.2 (B.1.1.529.2), BA.3, BA.4 (B.1.1.529.4), BA.5 (B.1.1.529.5), EG.5 (Eris) və s. subvariantlarının mövcud olduğu təsdiq edilib. Ümumilikdə Omicron variantının dünyanın 149 ölkəsində yayılması təsdiqini tapıb.

"Eris" (EG.5) variantı hələ son mutasiya deyil. "Eris" - Yunan ilahəsinin adıdır. "EG.5" adlı yeni mutasiya ilk dəfə 2023-cü ilin fevralında İndoneziyada, sonra isə ABŞ-da aşkarlanıb. O, ölümcül virus olmasa da, daha sürətlə yayılması və yoluxuculuğunun digər ştammlara nisbətən yüksək olması ilə fərqlənir. ÜST-ün məlumatına görə, son aylarda "Eris" variantı Avropa və ABŞ-da daha çox müşahidə edilib".

Mütəxəssis bildirib ki, Xəstəliklərə Nəzarət və Qarşısının Alınması mərkəzlərinin məlumatına əsasən, son vaxtlar "Eris" variantına yoluxma halları artmaqdadır: "Eris" variantı ümumilikdə COVID-19 infeksiyasına yoluxanların 20,6%-ni təşkil edir. ÜST "Eris" variantını 10.07.23-ci ildə nəzarət edilən variantlar siyahısına daxil edib.

Ümumiyyətlə son aylar dünyada yoluxanların sayında nisbətən artım olsa da, xəstəxanada yatan xəstələrin sayında artım müşahidə edilməyib. 65 yaş və üzərində olan şəxslər və həmçinin xroniki xəstəliklərdən (şəkərli diabet, autoimmun xəstəliklər və s.) əziyyət çəkən şəxslərdə xəstəliyin ağırlaşmalarına rast gəlinib. "Eris" variantına yoluxmuş xəstələrdə yorğunluq, subfebril qızdırma, öskürək, baş və əzələ ağrısı, boğaz ağrısı, burun axması, bəzən ishal, qoxu və dad bilmənin itməsi kimi əlamətlərə rast gəlinir. Xəstəliyin əlamətləri adətən 5-7 gün davam edir. Bəzən xəstələrdə boğaz ağrısı əlaməti üstünlük təşkil edir. Xəstələrin demək olar ki, böyük əksəriyyəti xəstəliyi yüngül keçirir. Yalnız uzun illər xroniki xəstəlikdən əziyyət çəkən yaşlı insanlarda ağırlaşmalar baş verə bilər. Yaşlılarda, xüsusilə yanaşı xəstəliyi olanlarda az hallarda ağciyərdə "buzlu şüşə" inkişaf edir".

Xəstəliyin müalicəsindən də bəhs edən həkim bildirib ki, bu o qədər də ciddi rejim tələb etmir: "Ev şəraitində xəstələrin müalicəsi aparıla bilər. Ağırlaşmalar olduqda, xəstələr stasionara yerləşdirilir. Hər bir xəstəyə fərdi yanaşılmalıdır. Virusa təsir edən konkret antiviral preparatlar olmasa da, bir çox ölkələrdə hələ də favipiravir preparatı istifadə edilməkdədir. İkincili infeksiyalar ilə ağırlaşmalar zamanı antibiotikobakterial müalicə təyin edilməlidir.

Bu varianta qarşı xüsusi peyvənd mövcud olmasa da, COVID-19-a qarşı aparılan peyvəndlər (Astra Zeneca, Sinovac, Moderna, Sputnik-v və s.) "Eris"dən qorunmaqda da effektivdir".

# Əməkdaşlarımız Əmək və Sosial Münasibətlər Akademiyasında çıxış edib

**Noyabrın 15-16-da Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tapşırığı əsasında Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında "Peşəkar risklər: hüquqi baza, tədbirlərin təşkili, həmkarlar ittifaqlarının rolu" mövzusunda təlim keçirilib.**



Əməyin mühafizəsi üzrə texniki əmək müfəttişləri, həmkarlar ittifaqı təşkilatlarının sədrləri və müvəkkilləri üçün təşkil edilən təlimdə ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının əməkdaşları dosent Səyyad Gürzəliyev və dosent Minayə Nəbiyeva "Xroniki xəstəlik hallarının qarşısının alınmasında həyata keçirilən əsas tədbirlər: istehsalat xəsarətlərinin və kəskin peşə xəstəliklərinin qarşısının alınmasının əsasları, ilkin və dövrü tibbi müayinələrin aparılması qaydaları" və "Bəzi kateqoriyalı işçilərin tibbi müayinəsi. İşçilərin klinik müayinəsi: sənədlər, yeni zəmanətlər, işçinin və işəgötürənin öhdəlikləri. Təhlükəsiz iş şəraiti" mövzularında mühazirə oxuyublar. Çıxışlar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb və hər iki mühazirəyə dair suallar ətraflı cavablandırılıb.

# Narkotik asılılığı: dəhşətli yola düşüncəsiz atılan addımlar

## Mütəxəssis bildirir ki, uşaqların sərbəst vaxtını, pulunu nəyə xərclədiyini, ətrafını nəzarətdə saxlamaq vacibdir

**Qəzetimizə əvvəlki açıqlamasında "narkomaniya" və "narkoman" sözlərinin artıq rəsmi təbabətdə işlənmədiyini deyən həkim-psixiatr, ATU-nun Psixiatriya kafedrasının dosenti Araz Manuceri bu sahədə diqqət çəkən digər həssas məqamlara toxunub. O, birinci risk qrupuna uşaqların və yeniyetmələrin daxil olduğunu bildirərək təəssüflə qeyd edib ki, 12-13 yaşlı uşaqların psixoaktiv maddələrdən istifadə etməsi və hətta onların arasında qız uşaqlarının olması qorxulu tendensiyadır:**



"Belə uşaqlarla dəfələrlə rastlaşmışam. Onlarda yeni bir təəssürat, yeni bir emosiya yaşamaq marağı güclüdür. Özlərini kiməsə oxşatmaq istəyirlər. Əsasən də xarici filmlərdə, seriallarda gördükləri hansısa şəxsləri özlərinə kumir, ideal seçirlər. Baxırlar ki, Avropa filmlərində qəhrəman depressiyaya düşəndə, problem yaşayanda içərək stresdən çıxır. Reklam gedən seriallarda cavanların viski içməsini, marixuana çəkməsini normal bir hal kimi təqdim edirlər.

Başqa bir risk qrupu kənar şəxslərin təsirinə tez düşən, müstəqil qərar qəbul etmək qabiliyyəti zəif olan insanlardır. Beləlləri məsuliyyəti öz üzərlərinə götürməyərək, həmişə başqalarından kömək gözləyirlər".

Mütəxəssisin sözlərinə görə, özündən narazı olan, tez həyəcana və təşvişə düşən nevrotik tipli şəxslər də risk qrupuna daxildir. Onlar bütün problemlərini narkotik və alkoqolun təsiri altında həll etməyə çalışırlar: "Bəzi insanlar da öz psixi problemlərini aradan qaldırmaq üçün narkotikdən istifadə edir və narkotik onun psixi xəstəliklərinin əlamətlərini "yüngülləşdirir". Yəni narkotik, alkoqol depressiyalarda ilkin olaraq yaxşı təsir göstərir. Sonra isə tam əksinə.

Bundan başqa, tələbələr psixostimulyatorlardan daha çox istifadə edirlər. Bunların ən geniş tanınmış forması tibbi adı metamfetamin olan "şüşə", "patı"dır. Tələbələr xüsusən imtahana hazırlaşan zaman istifadə edirlər ki, gecələr yatmasınlar. Bu zaman yuxu pozulur, beyin sürətlə işləyir, yaddaş güclənir, qavrama qabiliyyəti artır. Lakin bu o demək deyil ki, onların hamısı yaddaşlarında gözəl qalacaq. Bir neçə gündən sonra o informasiya beyindən silinir. Bu maddələr yaddaşı qısa müddətdə gücləndirir, amma məlumatı uzunmüddətli yaddaşa keçirməyə qoymur. Xroniki ağrısı olan şəxslər də hansısa bir ağrıkəsici maddədən istifadə edərək rahatlıq tapandan sonra qeyri-tibbi istifadəyə başlayırlar. Gələcəkdə asılılıq yaranmasının səbəblərindən biri də budur".

Həkim deyib ki, orta yaşlı insanlar arasında istifadəçiləri 3 şərti qrupa ayırmaq olar: müflis olub pullarını itirənlər, həddindən artıq pul gələndə müxtəlif əyləncələr, təzə emosiya, ləzzət, həzz axtaranlar və keçmiş həyatına nəzər salaraq heç nəyə nail olmadıqlarını düşünənlər: "Orta yaşın krizisi" deyilən bir psixoloji termin var. Belə ki, həm kişilər, həm qadınlar təxminən 40 yaşa çatanda emosional krizis yaşayırlar. Yəni keçmişə nəzər salanda onlara elə gəlir ki, boşuna həyat sürüblər. Belə hallarda insanlar depressiv əlamətləri aradan qaldırmaq üçün özlərinə cəlbedici xəyallar qururlar. Fikirləşirlər ki, həyatlarının zirvə nöqtəsini artıq keçiblər, qocalığa doğru gedirlər. Ona görə də "özləri üçün yaşamaq" istəyi ilə uyuşdurucu, müvəqqəti xoş əhval yaradan maddələrdən istifadə edirlər".

Valideynlərə uşaqları daim nəzarətdə saxlamağı məsləhət görən müsahibimizin sözlərinə görə, uşağın istəklərini nəzərə almamaq, ona kiminsə uşağını nümunə göstərmək və yaxud ondan hökmən ali təhsil tələb etmək doğru deyil: "Çox təəssüf ki, bəzən valideynlər uşaqdan nəsə tələb edəndə özlərini fikirləşirlər. Sanki həyata keçirə bilmədikləri arzularını uşaqlara ötürürlər. Amma uşağın öz istəyini nəzərə almaq, uşağı başa düşmək, ona uşaq gözü ilə baxmaq daha faydalıdır. Yəni ağıllı insan böyüklə böyükdür, kiçiklə kiçik. Uşağın sərbəst vaxtını, pulunu nəyə xərclədiyini, ətrafını nəzarətdə saxlamaq vacibdir. Bu prinsipləri nəzərə alaraq uşaqları pis vərdişlərdən qoruya bilərik".

A.Manuceri qeyd edib ki, narkotik vasitələrdən asılılıqla bağlı erkən dövrdə müraciət edən xəstələrin müalicəsi ilə 5 il və daha uzun müddət istifadə edənlərin müalicəsi fərqlənir. Narkotik maddədən 6-12 ay ərzində istifadə edənlərin reabilitasiyası daha tez baş verir. Düzgün müalicə nəticəsində narkotik maddələrdən asılılıq aradan qaldırılır. Lakin istənilən halda, xəstənin özündən çox şey asılıdır. Psixoloji vəziyyətini nəzarətdə saxlayaraq xəstəlikdən xilas olmaq istəyənlər daha tez sağalırlar.

**Tələbə tribunası**

# Ginekologiya - ilk dəfə dinləniləcək mahnı kimidir

**Uşaqlığımdan bəri hər zaman yeniliyi çox sevmişəm. Yeni insanlar tanımağı da, öz maraqlarımı kəşf etməyi də çox sevirəm. Sosial biri olmağıma baxmayaq, kitab xarakterlərini də tanıyıb, onlarla empatiya qurmağı vərdiş halına gətirmişəm. Mandala boyamaq, puzzle düzəltmək, müxtəlif tərzlərdə kitablar oxumaq, mahnılara qulaq asmaq isə maraqlarımın başında gəlir.**



Yeniliklərlə bərabər ortaya çıxan problemləri həll etməyi və zəhmət çəkməyi də çox sevirəm. Bu istək və həvəslərimə uyğun olaraq Azərbaycan Tibb Universitetinə qəbul olmuşam. Tibb elə bir sahədir ki, hər zaman yeniliklərə açıqdır. Həvəsim davam etdiyi müddətcə isə zəhmət çəkməkdən zövq alacam. Tibdə məni daha çox çəkən sahə ginekologiyadır. Dünyaya yeni bir insan gətirmək isə yeniliklərin ən böyüyüdür. Cəmiyyətin bünövrəsi qadındır və qadın ölümlərinin çoxu bu sahədə baş verir. Bu sahəni ilk dəfə dinləniləcək bir mahnıya bənzətmək olar. Nələr olacağını təxmin etmək isə çətindir. Lakin musiqidən yaxşı başı çıxan insan bu qarışıqlığı anlayaraq melodiyaya uyğun hərəkət edə bilir.

Öz maraqlarıma uyğun olaraq qarşıya çıxan problemləri həll edib, yeni şeylər edə biləcəyim sahələrdən biri də universitetimizin Tələbə Gənclər Təşkilatıdır. Universitetdə öz ixtisası ilə yanaşı başqa maraqları da olan tələbələr var və imkan daxilində bu maraqlarla üst-üstə düşə biləcək tədbirlər keçirməyə çalışırıq.

Eləcə də universitetdən kənarda bir neçə təşkilatla əməkdaşlıq edirəm. Bunlardan biri "Leykemiya ilə mübarizə" ictimai birliyidir. Onlarla tanışlığım ötən il universitetimizdə təşkil olunan bir tədbirdən başlayıb. Orada İnci adlı balaca qızın sağalması xəbəri verildi. Tədbirdən sonra isə İncinin anası ilə söhbətim zamanı o mənim Tibb Universitetində oxuduğumu öyrəndi və "sən də hematoloq ola bilərsən ki?" - deyə soruşdu. Mən "bəli" - deyə cavab verdikdən sonra qızına baxaraq məni göstərdi, "görürsən? O da sənin həkimin kimi ola bilər" - dedi. İncinin anasının baxışları məni qürurlandıran baxışlardan idi. Gələcəkdə də bu cür baxışlarla qarşılaşmaq ehtimalını nəzərə alsam, tibbi - bu qədər əziyyətli sahəni seçdiyim üçün peşman deyiləm.

Qeyd edim ki, yaxın zamanlarda Tələbə Gənclər Təşkilatının dəstəyi ilə keçənilki tədbirin davamı olaraq xeyriyyə aksiyaları təşkil etmək niyyətindəyik.

**Zəhra İBRAHİMOVA,**
*I Müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi, TGT-nın sədr müavini*

# Vazkeçilməz texnologiyaların qaçılmaz fəsadları

## Kompüter və telefonların uşaqlara zərərlərini saymaqla bitmir

**Son illər uşaqların sağlamlığına təsir edən yeni amillər meydana çıxıb. Onlardan biri informasiya-kommunikasiya texnologiyalarıdır (İKT). Yeni texnologiyaların uşaqların sağlamlığına nə dərəcədə təsir etməsi barədə ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti Zöhrə İsmayılova söhbət açıb.**



O bildirib ki, indiki uşaqlar İKT-dən müntəzəm istifadə edən insanların ən böyük hissəsini təşkil edir və hiperinformasiya cəmiyyətində İKT onlar arasında təlim və sosiallaşma vasitəsinə çevrilib: "Araşdırmalar göstərir ki, gənc nəsil tərəfindən ən populyar və çox istifadə edilən qadjetlər mobil telefon və planşet, kompüter və noutbukdur. Yaşından asılı olmayaraq, İKT uşaqların gündəlik həyatına daxil olan şən əyləncə vasitəsi hesab olunur. Müasir uşaqlar interaktiv oyunlarsız yaşamağı təsəvvür etmir. Çünki onları ailədə körpəlikdən başlayaraq interaktiv oyun sistemi, internet əhatə edir. Bu isə əlavə psixofizioloji yük mənbəyidir. Təəssüf ki, uşaq orqanizmi elektromaqnit şüalanmasına böyüklərə nisbətən daha çox həssasdır, böyüməkdə olan uşaq orqanizmi dəyişikliklərə daha çox meyllidir. Ona görə də 2 yaşına qədər uşaqlara telefonu qətiyyən vermək olmaz".

Z.İsmayılovanın sözlərinə görə, saatlarla İKT-dən istifadə - rast gəlinən əsas pis vərdişlər sırasına daxildir və texnologiya asılılığı yaradır. Nəticədə, düşünə bilməyən, mübahisə bacarığı olmayan cəmiyyətlər formalaşır. Texnoloji cihazlardan məhrum olunmaq isə bu insanlarda ciddi məhdudiyyətlərə yol açır: "Müasir informasiya-kommunikasiya vasitələri uşaqların adaptasiya və ünsiyyət qabiliyyətini məhdudlaşdırır. Uşaq mobil dünya ətrafında sıxılır və küçəyə çıxmaq, açıq havada gəzmək tələbatı azalır, bəzən onlarda dostluq yaratmaq, ünsiyyət qurmaq problemi ortaya çıxır. Ona elə gəlir ki, telefonu, kompüteri olmasa, dostları üçün maraqsızdır".

Mütəxəssisin fikrincə, uşaqların saatlarla televizora baxması, çoxsaylı telefon danışıqları və ya müxtəlif "şiddətli" oyunları seyr etməsi onların sosial mühitlə əlaqələrini zəiflədir və həyatlarını cihazlardan asılı vəziyyətə salır: "Bu asılılıq uşaqların səhhətinə ciddi zərər vurur: ilk növbədə görmə qabiliyyətini aşağı salır, onurğa sütununun düzgün inkişafına mane olur, tənəffüs sistemində problemlər yaradır, başağrıları əmələ gətirir, yuxu pozulmasına, yorğunluğa səbəb olur. Bu patoloji vəziyyət uzun müddət yazı və ya oxu gigiyenasının pozulması nəticəsində də baş verə bilər.

Həmçinin uşaqların oyunda "qalib gəlmək" üçün ekran qarşısında saatlarla vaxt keçirmələri onları dərsdən yayındırır, dərslərə hazırlaşmalarını arxa plana keçirir. Qaranlıq otaqda parlaq ekran güclü vizual stimulyasiya törədir, yuxunu pozur, qarabasmalara səbəb olur. Uzun müddət kifayət qədər yatmamaq həddindən artıq yorğunluq və nevrotik pozğunluqlar yaradır. Onlar üçün başqa əşyalar az maraqlı olur, uşağın diqqəti azalır. Başqalarının, hətta evdəki valideynlərinin, bacı və qardaşlarının emosiyalarını görə bilmirlər. Həssas uşaqlarda döyüş və ölüm səhnələri ilə bol emosional oyunlardan və filmlərdən sonra özünəqapanma halları olur, məktəb yoldaşları və ətrafına qarşı aqressiv davranışlar formalaşır, onlarda qəddarlıq və zorakılıq hissləri üstünlük təşkil edir, həmin hisslərlə yanaşı, qorxu hissi əmələ gəlir. Belə vəziyyət yetkinlik yaşındakı uşaqlarda daha qorxulu, xoşagəlməz hallara gətirib çıxarır".

Mütəxəssis iki və daha çox cihazdan eyni vaxtda və fasiləsiz istifadə zamanı elektron sistemlərin zərərli təsirini azaltmaq üçün tövsiyələrini də bölüşüb: Uşaqların kompüterdən istifadəsi zamanı 7 əsas qaydaya əməl edilməlidir. Zəif görən uşaqlar kompüter qarşısında yalnız eynəklə oturmalı, gözlə ekran arasındakı məsafəyə əməl olunmalı (50-70 sm), hər 15-25 dəqiqədən bir fasilə verilməli, göz üçün və ümumi gimnastika hərəkətləri edilməli, düzgün işçi pozaya əməl olunmalı, qaranlıqda kompüterdə işləməməli, oyun və proqramların məzmununa nəzarət edilməlidir: "Valideynlər diqqət etməlidirlər ki, kompüterlə ünsiyyət uşağa yalnız faydalı olsun. Nəzərə alınmalıdır ki, kompüter dünya haqqında yeganə informasiya mənbəyi ola bilməz. Uşaq üçün o, tədris müəssisəsindən, kitablardan aldığı biliyin möhkəmləndirilməsi və dərinləşdirilməsinə xidmət etməlidir".

# XV Respublika Universiadasında dörd tələbəmiz medal qazanıb



**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş ali təhsil müəssisələrinin tələbələri arasında XV Respublika Universiadasına yekun vurulub.**

Azərbaycan Memarlıq və İnşaat Universitetində kişilər arasında keçirilən yunan-roma güləşi üzrə yarışlarda universitetimizi 5 tələbə güləşçi təmsil edib. Məşqçi-müəllim, Əməkdar idman xadimi, professor Zakir Məmmədovun rəhbərliyi altında hazırlanan tələbələrimiz həm sərbəst, həm də yunan-roma güləşi üzrə yarışlarda heç bir zədə almadan iştirak ediblər. Onlardan Murad Həsənli və Murad Şıxıyev I yeri tutaraq qızıl medal, İbrahim İbrahimli və Kamal İsmayılov isə III yerə sahiblənərək bürünc medal qazanıblar.

Məlumat üçün qeyd edək ki, yarışlarda 6 komanda iştirak edib. Azərbaycan Memarlıq və İnşaat Universiteti ümumi nəticədə yarışın qalibi olub. Turnir Gənclər və İdman, Elm və Təhsil nazirliklərinin birgə dəstəyi, həmçinin "Gənclik" Tələbə İdman Cəmiyyəti, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqları Respublika Komitəsinin təşkilatçılığı ilə baş tutub.

Yarışlarda qazandıqları nailiyyətə görə tələbələrimizi təbrik edir, onlara yeni-yeni uğurlar arzulayırıq!

# ATU-nun əməkdaşı Tunisdə peşəkar təlim məşqləri və seminarlar keçib

**Noyabrın 2-7-də Tunisin Monastir və Sousse şəhərlərində Kyokuşinkay karate üzrə qış düşərgəsi və beynəlxalq turnir keçirilib. Hakimlərə və idmançılara peşəkar təlim məşqləri və seminarlar keçmək üçün ATU-nun "Təbib" idman klubunun sədri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov rəsmi dəvət alıb.**



Hava limanında təmsilçimizi Tunisin Kyokuşinkay Karate və Döyüş Sənəti Federasiyasının prezidenti Taha Bagga və digər nümayəndələr qarşılayıb.

İdmançılara peşəkar ustad təlim məşqləri keçmək üçün Q.Aslanovla yanaşı, Yaponiyadan olan 6-cı dan şihan Ryu Naruşima və 4-cü dan sensey Yusuke Fuji, Kyokuşin Dünya Birliyinin (KWU) baş katibi, rusiyalı 5-ci dan Aleksandr Piçkunov və türkiyəli 5-ci dan İsmail Kocal da dəvət alıb.

Gündəlik peşəkar təlimlər əvvəlcədən planlaşdırılmış proqram üzrə qruplara uyğun təşkil edilib. Q.Aslanovun ilk peşəkar təlim məşqləri 2 noyabrda Sousse şəhərində müxtəlif yaş qruplarından olan 200-ə yaxın idmançı ilə keçirilib.

Peşəkar təlim məşqləri yaponiyalı ustad Ryu Naruşimanın rəhbərliyi ilə baş tutub. Eləcə də həmin günün proqramına uyğun olaraq hakimlik seminarları başlayıb. Seminarları KWU Hakimlər Kollegiyasının üzvü, dəfələrlə Avropa və dünya çempionatlarında "Ən yaxşı hakim" seçilən təmsilçimiz Qələndər Aslanov və KWU-nun baş katibi Aleksandr Piçkunov idarə edib. 7 ölkədən (Tunis, Əlcəzair, Liviya, Qvineya, Mərakeş, Konqo, Polşa) 150-dən çox hakimin iştirak etdiyi seminar ilk olaraq test həll etməklə başlanıb. Testlərlə bağlı suallar bitdikdən sonra təcrübə məşğələləri keçirilməsi üçün hakimlər qruplara bölünüb. Hakimlərin sayı gözlənildiyindən daha çox olduğu üçün seminarlar 2 gün ərzində 8 saat davam edib.

Noyabrın 4-də Monastir şəhərinin mərkəzində dövlət nümayəndələrinin iştirakı ilə böyük (1400 iştirakçı) festival təşkil olunub. Tədbir Tunisin Dövlət Himninin səslləndirilməsi və Fələstində dünyasını dəyişən insanların xatirəsini anmaqla başlayıb. Sonra təlim məşqlərinin keçirilməsi üçün idmançılar qruplara bölünüb. Yaponiyalı və rusiyalı karate ustaları ilə eyni meydanı bölən ATU əməkdaşı təlim məşqlərini bitirdikdən sonra turnirin təşkilati işlərinə yaxından dəstək verib.

Yarışı idarə edən hakimlərin doğru verilməyən qərarları və digər qayda pozuntuları yerindəcə təmsilçimiz tərəfindən izah edilib, mübahisəli məsələlər aradan qaldırılıb və heç bir idmançının hakim ədalətsizliyi ilə üzləşməsinə imkan verilməyib.




Turnirdən sonra Təşkilat Komitəsinin xahişi ilə döyüşlərdə baş verən hadisələri analiz etmək və hakim səhvlərini müzakirə etmək üçün seminar təşkil olunub. Qələndər Aslanovun rəhbərliyi ilə keçirilən sonuncu seminarda hakimlərin suallarına aydınlıq gətirilib, cavablar təcrübi şəkildə göstərilib.

Sonra dövlət nümayəndələri ilə təmsilçimiz arasında rəsmi görüş baş olub. Tunis və Azərbaycan arasında dostluq münasibətlərinin qurulması, həmçinin gələcəkdə tələbələrin tibb təhsili alması üçün qarşılıqlı mübadilə proqramları yaratmaq, bununla yanaşı, idman yarışları təşkil etmək istiqamətində danışıqlar aparılıb.

Sonda ATU-nun "Təbib" idman klubunun sədri Tunisin Kyokuşinkay Karate və Döyüş Sənəti Federasiyasının prezidenti tərəfindən beynəlxalq peşəkar təlimlər, hakimlərə keçirilən seminarlar və çempionata verdiyi töhfəyə görə təşəkkürnamələrlə təltif olunub.

**Bu günlərdə ATU-nun I və II Daxili xəstəliklər kafedralarının əməkdaşları, dosent Səbinə Məşədiyeva-Bayramova, professor Sergey Alimetov və dosent Şəfəq İbrahimovanın birgə müəllifliyi ilə "Şəkərli diabet" adlı monoqrafiya "Elm-təhsil" nəşriyyatında işıq üzü görüb.**

# "Şəkərli diabet" kitabı işıq üzü görüb

365 səhifədən ibarət olan monoqrafiya şəkərli diabetə dair ikinci nəşr hesab olunur. Kitabda bu xəstəliyin etiopatogenezi, klinikası, diaqnostikası və müalicəsi haqqında yeni məlumatlar öz əksini tapıb.

Monoqrafiyanın giriş hissəsində qeyd edilir ki, şəkərli diabet hazırda əhali arasında ən geniş yayılmış endokrin sistemli xəstəliklərdən biridir. Müəlliflər yazır ki, dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələrində bu xəstəliyə düçar olmuş insanların sayı hər 10-15 il ərzində iki dəfədən çox artır və 2050-ci ilə kimi 1,5 milyarddan çox olacağı gözlənilir. ÜST-ün 2021-ci il üçün statistik məlumatına görə, dünyada artıq 529 milyondan çox şəkərli diabet xəstəsi olub, 25 yaşdan yuxarı şəxslərin demək olar ki, 10%-i bu xəstəlikdən əziyyət çəkir. Əsasən 40-60 yaş insanlar arasında qeydə alınıb.

Kitabda göstərilir ki, şəkərli diabetin təsnifatı üzrə ayırd edilən bütün formalarının sırasında onun 2-ci tipi 90-95% təşkil edir və son 10 il ərzində ümumi ölümün səbəbləri sırasında dördüncü yeri tutur.

Kitabda şəkərli diabetin etiologiyası, risk amilləri, inkişaf və proqressivləşmə mexanizmləri, karbohidrat mübadiləsi, diaqnostika və xüsusilə müasir müalicəsi hazırda əldə olunmuş nəzəriyyə və təcrübə əsasında proqramlaşdırılmış şəkildə, nozoloji və sindrom prinsipi üzrə böyük həcmdə, aydın və səlis təsvir edilib.

Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının qərarına əsasən çap edilən monoqrafiya terapevtlər, endokrinoloqlar və digər tibb mütəxəssisləri, həmçinin yuxarı kurs tibb tələbələri, rezidentlər üçün nəzərdə tutulub.




**Uzun illər həyatını ATU-nun İctimai fənlər kafedrasına bağlayan professor Fəxrəddin Məmmədovun 75, əmək fəaliyyətinin isə 50 ili tamam olur.**

# ATU-nun tarixçi professorunun 75 yaşı tamam olur



Fəxrəddin Nəriman oğlu Məmmədov 1948-ci il dekabrın 13-də Hacıqabul rayonunun Qızılburun kəndində ziyalı ailəsində dünyaya göz açıb. Şirvan şəhəri 2 saylı məktəbdə orta təhsilini başa vurduqdan sonra tarixçi olmaq arzusu ilə 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsinə daxil olub. 1971-ci ildə BDU-nu fərqlənmə diplomu ilə bitirən F.Məmmədov Salyan rayonunda müəllimlik fəaliyyətinə başlayıb və 1973-77-ci illərdə AMEA-nın Tarix İnstitutunun aspiranturasında təhsilini davam etdirib. O, Tarix İnstitutunda işləyə-işləyə, eyni zamanda bir neçə ali məktəbdə tələbələrə tarix fənnini tədris edib. 1989-cu ildən əmək fəaliyyətini Azərbaycan Tibb Universiteti ilə bağlayan Fəxrəddin müəllim universitetdə tədrislə yanaşı, elmi tədqiqatlarının miqyasını da genişləndirib.

F.Məmmədov hələ Azərbaycan MEA-nın Tarix İnstitutunda işləyərkən 1978-ci ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyasını müdafiə edərək Azərbaycan tarixi sahəsində tədqiqatçı-mütəxəssis kimi tanınıb və 1994-cü ildə ATU-nun Elmi Şurasının qərarı ilə professor adını alıb.

Ömrünün 50 ildən çoxunu tarix elminin inkişafına sərf edən dəyərli alimin bu illər ərzində "İnqilab barrikadalarında", "Gəncə", "Ulu Gəncə", "İstiqlal mücadiləmizin beşiyi", "Azərbaycan tarixi" (izahlı xronologiya), "Azərbaycanın şimal qapısı Xaçmaz" adlı kitabları işıq üzü görüb. Bundan başqa, onun yazdığı "Azərbaycan tarixi" (Bakı, 2011), "Azərbaycan dövlətçilik tarixi" (Bakı, 2019) dərs vəsaitləri tələbələrin ixtiyarına verilib və 200-ə qədər elmi məqaləsi nəşr edilib. Professor F.Məmmədovun "Hüseynqulu xan kimdir" və "Bir daha Şah İsmayıl Xətai haqqında" silsilə məqalələri respublikanın tarix ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanıb. Hələ o zamanlar siyasi mövzuda yazdığı "Qarabağ probleminin sülh yolu ilə həll olunmasında Prezident Heydər Əliyevin rolu" və "Yolumuz demokratiya yoludur" başlıqlı məqalələri ABŞ və Yəmənin mətbuat orqanlarında nəşr edilib.

Onun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti ilə bağlı məqalələri respublika ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

Tariximizdəki müxtəlif hadisələrlə bağlı universitetimizdə keçirilən tədbirlərin fəal iştirakçısı olan Fəxrəddin müəllim bu tədbirlərdə dəfələrlə öz maraqlı məruzələri ilə çıxışlar edib. Professor F.Məmmədov tədqiqatçı alim, savadlı müəllim olmaqla yanaşı, həm də fəlsəfəni, ədəbiyyatı, musiqini, muğamı dərindən bilən, duyan hərtərəfli şəxsiyyət, yüksək nitq mədəniyyətinə malik natiqdir.

Hörmətli professorumuzu yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, hərtərəfli fəaliyyətində uğurlar arzu edirik.

***İctimai fənlər kafedrasının əməkdaşları***

**Allah rəhmət eləsin!**

Farmakologiya kafedrasının əməkdaşları kafedranın dosenti Ülkər Məcidovaya əzizi

**İsfəndiyar Məcidovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0020
Sayı 800